**Akifə Akif qızı Ağayarova**

**UOT: 339.9; 314.7; JEL: F 22.**

# Azərbaycan Respublikasında əhali miqrasiyasının tənzimlənməsi xüsusiyyətləri

***Xülasə***

*Məqalədə Azərbaycanda miqrasiya proseslərinin tənimlənməsində dövlətin rolu araşdırılmışdır. İnkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, miqrasiya proseslərinin ölkənin iqtisadi inkişafına təsiri çox böyükdür. Müəllif eyni zamanda müasir dövrdə Azərbaycanın dünyadakı miqrasiya proseslərində iştirakının araşdırılmasına, miqrasiyanın əsas xüsusiyyətlətinin müəyyən edilməsi məsələlərinə baxmışdır. Məqalədə miqrasiya proseslərinin ölkənin sosial-iqtisadi inkişafına və demoqrafik vəziyyətinə təsirinin qiymətləndirilməsi istiqamətlərinə də toxunmuşdur.*

**Açar sözlər**: *inteqrasiya, qloballaşma, miqrasiya, emiqrasiya, insan kapitalı, miqrantlar, milli iqtisadiyyat*

## Giriş

Dünyada ilk miqrasiya prosesləri ibtidai icma dövründə də təbii şəraitdən asılı olaraq baş vermişdir. Beləliklə, miqrasiya bəşər tarixinin bütün mərhələlərində mövcud olmuş, insanlar yaxşı, sakit və firavan həyat yaşamaq naminə bir şəhərdən və ya ölkədən digərinə köç etmişlər. Əhalinin bir yerdən digər yerlərə köçməsi sivilizasiyanın ayrı-ayrı inkişaf mərhələlərində müxtəlif səbəblərlə bağlı olmuşdur. Heyvandarlığın əkinçilikdən ayrılması, sənətkarlığın yaranması, şəhərlərin meydana gəlməsi, müharibələrin aparılması və s. nəticəsində İçtimai əmək bölgüsü əmələ gəlmişdir. Ancaq bu hadisə insan cəmiyyətinin sənayenin inkişafi mərhələsinə keçməsi dövründə daha geniş xarakter almağa başlamışdır. Əhalinin bir ərazidən digərinə hərəkətinin iqtisadi səbəbləri vardır. Bu kapitalın və məhsuldar quvvələrin bir sahədən digərinə, bir ölkədən digərinə axın etməsi tələbləri ilə şərtlənir. Əhali miqrasiyasının tarixinin qədim zamanlara gedib çıxmasına və tarixi inkişafın müxtəlif mərhələlərində onun formaları, miqyası, intensivliyi və əsas nəticələrinin bir-birindən fərqlənməsinə baxmayaraq, postsovet məkanında, o cümlədən də Azərbaycan Respublikasında həmin problemin geniş surətdə tədqiqinə keçən əsin 60-70 illərindən başlanmışdır. 1970-ci illərdə SSRİ-də, o cümlədən də Azərbaycan Respublikasında bəzi iqtisadçı və coğrafiyaşünas alimlərin nəşr edilmiş əsərlərində əhali miqrasiyasının mahiyyəti, məzmunu, formaları, intensivliyi və nəticələrinin izahı verilməyə başlanmışdır.



## Azərbaycanda miqrasiya poseslərinin tənzimlənməsi xüsusiyyətləri

Bəzi müəlliflər miqrasiya prosesi ilə onun nəticələrini araşdıraraq, ona əhalinin ərazilər üzrə yerləşdirilməsi, digərləri əhalinin ərazilər üzrə yenidən bölüşdürülməsi prosesi və ya hadisəsi kimi baxmışlar. Başqa biriləri isə, haqlı olaraq, əhalinin yerdəyişməsi ilə mobilliyini bir-birindən fərqləndirərək, ona əhalinin coğrafi mobilliyi kimi baxırlar. Əhali miqrasiyası əsasən səbəblərinə görə iki yerə bölünür: iqtisadi və siyasi səbəblərlə bağlı miqrasiya. İqtisadi səbəblər üzündən baş verən əhali miqrasiyası-özlərinin həyat şəraitini yaxşılaşdırmaq məqsədi ilə başlıca olaraq öz arzuları ilə ölkənin bir ərazisindən başqa ərazisinə; bir ölkədən başqa ölkəyə köçüb gedən əhalinin hərəkəti başa düşülür. Məhs, işsizlik, əmək haqqının az olması, daha yaxşı yaşayış şəraitinə can atmaq və s. miqrasiyanın əsas yaranma səbəbləridir. İqtisadi miqrasiya dünya dövlətlərini narahat edən ən ciddi məsələlərdən biridir. Ümumilikdə, əhali miqrasiyası daimi yaşayış yerini dəyişməklə məlum ərazinin sərhədlərini keçməklə insanların yerdəyişməsindən ibarətdir [2]. Bu halda işçi hansı ölkədən getmişsə, o ölkə üçün emiqrant, gəldiyi ölkə üçün isə imiqrant hesab olunur. Köçlər

*©Akifə Akif qızı Ağayarova AMEA İqtisadiyyat İnstitutu, böyük elmi işçisi. E-mail:aqayarova.akifa@yandex.ru*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

işçi qüvvəsini ixrac edən ölkə əhalisini azaldır, idxal edən ölkənin əhalisini isə artırır. Bu isə hər iki tərəf üçün ciddi demoqrafik problemin yaranmasına səbəb olur. Eyni zamanda, əhalinin sayının dəyişməsi iqtisadi və sosial həyata ciddi təsir göstərir. Müasir dövrdə Azərbaycanın dünyadakı miqrasiya proseslərində iştirakının araşdırılmasına, respublikada iqtisadi və qeyri-qanuni miqrasiyanın qarşılıqlı əlaqələrinin müəyyən edilməsinə, ölkənin sosial-iqtisadi inkişafına və demoqrafik vəziyyətinə təsirinin qiymətləndirilməsinə böyük tələbat yaranmışdır. Siyasi səbəblərlə bağlı olan miqrasiyanın məqsədi iqtisadi cəhətdən deyil, siyasi cəhətdən vəziyyətin düzəldilməsindən ibarətdir. Keçən əsrin 90-cı illərinin əvvəlində Ermənistanda yaşayan azərbaycanlıların öz yurd-yuvasından didərgin düşməsi bu qəbildən olan miqrasiyadır. Dağlıq Qarabağ ətrafında baş verən hadisələrdən sonra azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasəti və torpaqlarımızın 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi nəticəsində 1 milyondan çox soydaşımız öz doğma ev-eşiyindən didərgin salınaraq respublikamızın müxtəlif bölgələrində sığınacaq tapmışdır. Aparılan tədqiqatların nəticələri göstərir ki, keçən əsrin 90-cı illərin başlanğıcında öz müstəqilliyini bərpa etdikdən sonra əhali miqrasiyasında xeyli dəyişikliklər baş vermişdir.

Müstəqilliyin ilk illərində ölkəmizdən miqrant axını müəyyən dərəcədə siyasi, milli və etnik xarakter daşıyırdısa, sonrakı illərdə emiqrasiya iqtisadi səbəblər üzündən baş vermişdir. Belə ki, keçən əsrin 90-cı illərinin əvvəlində əmək miqrasiyası Azərbaycan Respublikası vətəndaşının xarici ölkələrə axını ilə xarakterizə olunurdusa, hazırda ölkəmizdə yaranmış siyasi sabitlik və sosial iqtisadi inkişaf emiqrasiya axınını xeyli azalmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 19 mart 2007-ci il tarixində Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında 560 nömrəli Fərman imzalamışdır. Eyni zamanda, Miqrasiya proseslərinin vahid və çevik prosedurlar əsasında tənzimlənməsi, sənədləşmənin sadələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Miqrasiya proseslərinin idarəolunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" 4 mart 2009-cu il tarixli 69 nömrəli Fərman imzalanmışdır. Adı çəkilən Fərmanın tətbiqi ölkədə miqrasiya proseslərinin daha çevik və işlək mexanizmlər əsasında idarə edilməsinə, bu sahədə operativliyin təmin edilməsinə və həllini gözləyən problemlərin aradan qaldırılmasına səbəb olmuşdur. Fərmana əsasən, 2009-cu il iyulun 1-dən miqrasiya proseslərinin idarəolunmasında «bir pəncərə» prinsipinin tətbiq edilməsinə başlanılmış və bu prinsip üzrə vahid dövlət orqanının səlahiyyətləri Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə həvalə edilmişdir.

**Azərbaycanda miqrasiya sahəsində mövcud vəziyyətin dəyərləndirilməsi**

“Bir pəncərə” prinsipi çərçivəsində Dövlət Miqrasiya Xidməti əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazələrin və müvafiq vəsiqələrin verilməsini, onların qeydiyyata alınmasını, Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddətinin uzadılmasını, həmçinin ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsini həyata keçirir [4]. Şəkil 1-dən göründüyü kimi 1990-1991-ci illər, yəni iki il ərzində, qanuni yollarla daimi yaşamaq üçün ölkəmizdən gedənlərin sayı daimi yaşamaq üçün buraya gələnlərin sayını 93,7 min nəfər üstələmişdir (gələnlərin sayı 150,6 min nəfər, gedənlərin sayı isə 244,3 min nəfər təşkil etmişdir) [6]. 1995-2005- ci illərdə də gedənlərin sayı üstünlük təşkil etdimişdir. 1995-ci ildə ölkədən gedənlərin sayı 16 min nəfər, gələnlərin sayı isə 6,2 min nəfər olmuşdur. 2005-ci ildə 2,9 min nəfər ölkədən daimi yaşamaq üçün getmiş, daimi yaşamaq üçün ölkəyə gələnlərin sayı 2 min nəfər olmuşdur. 2010-2018-ci illərdə isə əksinə, qanuni yolla ölkəmizə gələnlərin sayı burdan gedənlərin sayını 2 dəfədən çox üstələmişdir. Daha dəqiq desək, bu dövrdə gələnlərin sayı 8,1 min nəfər, gedənlərin sayı 4 min nəfər təşkil etmişdir. 2014 cü ildən sonra



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

dünya bazarında neftin qiymətinin kəskin surətdə aşağı düşməsi Azərbaycanın iqtisadiyyatında özünü bəzi mənfi meyillərlə biruzə vermişdir.

**Şəkil 1.**

**Azərbaycana son illər üzrə daimi yaşamaq üçün gələnlər və gedənlərin dinamikası (min nəfər)**




Mənbə [6] əsasında müəllif tərəfindən tərtib edilmişdir

Qeyri-neft sektorunun zəif inkişaf etməsi və ölkəyə xarici valyuta daxilolmalarının azalması Azərbaycanda 2015-ci ildə iki dəfə devalvasiyasının olmasına səbəb olmuşdur. Bizim fikrimizcə bu amilin nəticəsində 2015 ci ildən başlayaraq Azərbaycandan gedən miqranlatın sayında bir qədər artım meyli müşahidə edilir.

**Cədvəl 1.**

**Azərbaycan Respublikasında əmək qabliyyətli əhalinin beynəlxalq miqrasiyasında baş verən dəyişiklik dinamikası ( nəfər)**

| | Ölkəyə daimi yaşamaq üçün gələnlər | | | Ölkədən daimi yaşamaq üçün gedənlər | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | Kişilər | Qadınlar | Cəmi | Kişilər | Qadınlar |
| **2010** | 2099 | 1359 | 740 | 660 | 306 | 354 |
| **2012** | 1981 | 1241 | 740 | 171 | 97 | 74 |
| **2014** | 1630 | 777 | 853 | 684 | 299 | 385 |
| **2016** | 2829 | 1232 | 1597 | 1577 | 776 | 801 |
| **2018** | 2834 | 1198 | 1636 | 1511 | 574 | 937 |

Mənbə [6] əsasında müəllif tərəfindən tərtib edilmişdir

2010-2018-ci illəri əhatə edən dövrdə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayının burdan daimi yaşamaq üçün başqa ölkələrə gedənlərin sayını üstələməsi nəticəsində əhalinin miqrasiya qalığı (saldosu) müsbət olduğundan o, ölkə əhalisi və əmək ehtiyatlarının artımına az da olsa müsbət təsir etmişdir [6]. Belə ki, 2018-ci ildə ölkəmizə daimi yaşamaq üçün gəlmiş 3220 nəfərin 2834 nəfəri əmək qabiliyyətli əhali təşkil etmişdir. Bunlardan 1198 nəfər kişi, 1636 nəfəri qadındır. 2010-cu ildə ölkəmizə daimi yaşamaq üçün gəlmiş əmək qabiliyyətli əhalinin sayı 2099 nəfər olmuşdur. Bu rəqəm 2018-ci ildə artaraq 2834 nəfər təşkil etmişdir (cədvəl 1). Təhlil olunan dövrdə müəyyən olunur ki, daimi yaşamaq üçün gələn əmək qabiliyyətli əhalinin sayı üstünlük təşkil etsə də, 2010-cu ilə nisbətən 2018-ci ildə



© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

daimi yaşamaq üçün respublikamızdan gedən əmək qabiliyyətli əhalinin sayı çoxdur. Daha dəqiq desək, 2010-cu ildə ölkədən gedənlər 660 nəfər olmuşdursa, 2018-ci ildə bu rəqəm artaraq, 1511 nəfər olmuşdur. İllər üzrə gələnlər və gedənlərin sayında fərqli meyllər müşahidə olunur. 2018-ildə ölkəmizə daimi yaşamaq üçün gələnlərin sayının çox olmasına baxmayaraq, 20-24 yaş üzrə ölkədən daimi yaşamaq üçün gedənlərin sayı 302 nəfər olmuşdur. Ölkəyə daimi yaşamaq üçün gələnlər isə 193 nəfərdir (cədvəl 2).

**Cədvəl 2.**

**Miqrantların cins və yaş qrupları üzrə bölgüsü (2018, nəfər)**

| Yaş qrupları | Ölkəyə daimi yaşamaq üçün gələnlər | | | Ölkədən daimi yaşamaq üçün gedənlər | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | Kişilər | Qadınlar | Cəmi | Kişilər | Qadınlar |
| **Cəmi** | 3220 | 1389 | 1831 | 1580 | 593 | 987 |
| **0-4** | 16 | 13 | 3 | 12 | 4 | 8 |
| **5-9** | 59 | 29 | 30 | 17 | 6 | 18 |
| **10-14** | 74 | 48 | 26 | 24 | 6 | 18 |
| **15-19** | 111 | 49 | 62 | 132 | 41 | 91 |
| **20-24** | 193 | 43 | 150 | 302 | 162 | 140 |
| **25-29** | 459 | 58 | 401 | 330 | 130 | 200 |
| **30-34** | 480 | 143 | 337 | 206 | 82 | 124 |
| **35-39** | 388 | 189 | 199 | 235 | 49 | 186 |
| **40-44** | 372 | 196 | 176 | 124 | 51 | 73 |
| **45-49** | 289 | 169 | 120 | 113 | 27 | 86 |
| **50-54** | 264 | 164 | 100 | 47 | 21 | 26 |
| **55-59** | 181 | 98 | 83 | 18 | 8 | 10 |
| **60-69** | 225 | 137 | 88 | 14 | 5 | 9 |
| **70-79** | 72 | 37 | 35 | 4 | 1 | 3 |
| **80 və yuxarı** | 37 | 16 | 21 | 2 | - | 2 |

Mənbə [6] əsasında müəllif tərəfindən tərtib edilmişdir

Aparılmş təhlil onu göstərir ki, 2018-ci ildə Azərbaycan üzrə miqrantların cins və yaş qrupları üzrə bölgüsündə ciddi dəyişiklik müşahidə olunur. Belə ki, 2018-ci ildə ölkəyə daimi yaşamaq üçün gələnlərin sayı 3220 nəfər, onun da 1831-i qadın, 1389- u kişi olmuşdur. Ölkədən daimi yaşamaq üçün gedənlərin sayı 1580 nəfər, onun 593 nəfəri kişi, 987 nəfəri qadın olmuşdur. Təhlil göstərir ki, ölkəyə gələn və gedənlərin sayında qadınlar üstünlük təşkil etmişdir. Belə ki, ölkə üzrə gedənlərin sayında 20-39 yaş qrupu üzrə qadınlar 61%, ölkə üzrə gələnlərin sayında 20-39 yaş qrupu üzrə qadınlar 72% təşkil etmişdir. Bizim fikrimizcə bu proseslərin səbəblərindən biri xarici ölkə vətəndaşları ilə nigah bağlanmasıdır.

**Nəticə**

Ölkədə yüksək ixtisaslı kadrların iş yerləri ilə təmin edilməsi çətinləşdikcə, onların ölkəni tərk etməsi ehtimalı artır. Hər bir kəs öz yaşadığı ölkədə təhlükəsiz şəraitdə yaşamalı və layiqli işlə təmin edilməlidir. Yüksək ixtisaslı insanların inkişaf etməkdə olan ölkələri tərk edərək digər ölkələrə, xüsusilə inkişaf etmiş ölkələrə daimi yaşamaq üçün getməsi qloballaşma dövründə ən ciddi problemlərdən biridir. Bu, təkcə əmək qabiliyyətli işçilərin emiqrasiyası prosesi deyil, həm də insan kapitalının axınıdır. Hər hansı ölkənin uzun müddət üçün dayanıqlı inkişafı ölkədə mövcud olan insan kapitalının həcmindən çox asılıdır. Hazırda iqtisadiyyatda insan kapitalı təbii ehtiyatlardan daha vacibdir. Qeyd edək ki, insan kapitalının ölkə iqtisadiyyatına gətirdiyi gəlir, təbii ehtiyatların verdiyi gəlirdən daha çox olduğuna görə, bu sahədə dövlət səviyyəsində davamlı olaraq iqtisadi tədbirlərin həyata keçirilməsi məqsədə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

uyğundur. Azərbaycanda əhali miqrasiyasının qarşısının alınması istiqamətində yeni dövlət proqramlarının qəbul edilməsi zəruridir.

**Ədəbiyyat**


1. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problmlər.-Bakı: Elm, 2004. 660 s.
2. Allahverdiyev M.M. "Azərbaycanda iş qüvvəsinin təkrar istehsalının bəzi məsələləri" Bakı, Elm, 1966, 158 s.
3. Филиппов Н.Н., Сурков В.В. «Проблемы формирования трудовых ресурсов села» Свердловск, 1972. с.107; Караханова Т.М. «Некоторые вопросы миграции населения в Узбекской ССР» Ташкент, 1974, с. 56
4. https://migration.gov.az/about/dmx
5. https://www.iom.int/wmr/world-migration-report
6. www.stat.gov.az/ miqrasiya_2018


***Акифа Акиф кызы Агаярова***

***Особенности регулирования миграции населения в Азербайджанской Республике***

***Резюме***

*В статье изучена роль государства в признании миграционных процессов в Азербайджане. Опыт развитых стран показывает, что влияние миграционных процессов на экономическое развитие страны очень велико. В статье также автор затронул вопросы изучения участия Азербайджана в миграционных процессах в мире в современный период, определения основных особенностей миграции, оценки влияния миграционных процессов на социально-экономическое развитие и демографическое состояние страны.*

***Ключевые слова:*** *интеграция, глобализация, миграция, эмиграция, человеческий капитал, мигранты, национальная экономика*

***Akifa Akif kyzy Agayarova***

***Features of regulation of population's migration in the Azerbaijan Republic***

***Summary***

*The article examines the role of the state in the definition of migration processes in Azerbaijan. The experience of developed countries shows that the impact of migration processes on the country's economic development is enormous. The author also touched upon the study of Azerbaijan's participation in the migration processes in the world, determination of the main features of migration, assessment of the impact of migration processes on the socio-economic development and demographic situation of the country.*

***Keywords:*** *integration, globalisation, migration, emigration, human rights, migrants, national economy*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 04.03.2020.***
***Çapa qəbul olunub: 10.03.2020.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*